## Şəhriyar və “Heydərbabaya salam”ın əzəməti

**Hamlet İsaxanlı**

18 sentyabr Iranda (Iran Azərbaycanında) “Milli şeir günü”dür, böyük İran və Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar`ın doğum tarixi dəqiq bilinmir (1905-6?), dünyasını dəyişmə tarixi isə 1988, 18 sentyabr`dır. Digər tərəfdən, 18 sentyabr Azərbaycan Respublikasında “Milli musiqi günü”dür, böyük Üzeyir bəy Hacıbəyli 1885-ci ili sentyabrın 18-də dünyaya gəlmiş, 1948-ci ildə - Şəhriyardan 40 il əvvəl vəfat etmişdir. İki Azərbaycanda ilin eyni günündə iki məşhur şəxsimizlə bağlı iki müxtəlif milli gün müxtəlif şəkildə bayram edilir, müxtəlif mərasimlər düzəldilir. Bu, eyniliyimizin və eyni zamanda fərqli olduğumuzun daha bir nümayişi deyilmi?!

Məhəmmədhüseyn Təbrizin Bağmeşəli səmtində anadan olmuşdur. Şair kimi Behcət təxəllüsü ilə başlamış, sonra Şəhriyar təxəllüsünü götürmüşdür (Hafizdən fal açmaqla). Şəhriyarın həyatı dəqiq faktlarla deyil, rəvayətlərlə, yuxugörmələrlə, müxtəlif şəxslərin söylədiyi ziddiyyətli xatirələrlə, falaçmalarla və ...bəlağətlə doludur. Bunun bir səbəbi Şəhriyarın artıq sağlığında əfsanələşməsi və haqqında müxtəlif rəvayətlərin yayılmasıdırsa, digəri, sözsüz ki, tədqiqatçıların baxış və üslubları ilə bağlıdır. Doğum ili dəqiq bilinmir. İlk kitabının Tehranda nəşr olunma tarixi (daha çox 1931 deyirlər), atasının ölüm tarixi (Şəhriyarın xatirələrinə görə 1934-cü il, Tehran) dəqiq məlum deyil. Şirazlı Sürəyya ilə sevgisi haqqında da çox rəvayətlər danışılır. Özündən sonra əsərlərinin nəşrində edilən təhriflər və tərcümədə təhriflər edildiyindən söz açmaq mümkündür.

Şəhriyarın atası Hacı Mirağa Xoşginabi vəkil-hüquqçu idi, xeyrxah insan olub (“Mənim atam süfrəli bir kişiydi / El əlindən tutmaq onun işiydi”). Şəhriyarın uşaqlıq xatirələrinin oyanmasında, türkcə şeir yazmağa başlamasında mühüm rol oynamış anası Kövkəb xanım 1952-ci ildə Tehranda vəfat etmişdir. Şəhriyar Xoşginab kəndində ibtidai məktəbdə və Təbriz şəhərində bir neçə mədrəsədə oxumuş, sonra Tehrana getmiş (deyilənə görə 1921-ci ildə), Tehranda tanışmış şair, yazıçı və musiqiçilərlə tanış olmuş, dostlaşmışdır. Tehranda darülfununda oxumuş, sonra (1924-cü ildə) tibb üzrə ali təhsilə başlamışdır, lakin son tədris ilində universiteti buraxmışdır (bunun sürgünlə əlaqəli olduğu deyilir). Şəhriyar Sürəyya xanımı sevmiş, Sürəyyanı zorla başqasına (şahın qohumuna) vermişlər, hər ikisi bu eşqi özləri ilə yaşatmışlar. Sürəyya ilə bağlı Tehrandan Nişapur və Məhşəd tərəflərə sürgün edildiyi deyilir (1930-35-ci illərdə; əhvalat tam dəqiq bilinmir, 1935-ci ildə Tehrana qayıtmışdır). Şəhriyarın əvvəlcə farsca yazdığı, sonra Azərbaycan türkcəsində səsləndirdiyi - bu, onun bir şeiri iki dildə yazmaq barədə yeganə təcrübəsidir - “Behcətabad xatirəsi” (Tehranda göl və park adı) qəzəli həmin dövrdəki görüş intizarından bəhs edir (Şəhriyar Sürəyya ilə son dəfə görüşmək istəmiş, Sürəyyanın anası qızının Behcətabad parkına gələcəyini vəd etmiş, Şəhriyar gözləmiş, lakin Sürəyya gəlməmişdi):

...Yatmış hamı, bir Allah oyaqdı, daha bir mən
Məndən aşağı kimsə yox, ondan da yuxarı.
...Qorxum budur, yar gəlməyə birdən yarıla sübh
Bağrım yarılar, sübhüm, açılma, səni tarı.
...Eşqi var idi Şəhriyarın güllü, çiçəkli
Əfsus, qara yel əsdi, xəzan oldu baharı.

Yalnız üç beytini gətirdiyimiz bu qəzəl Şəhriyarın poetik ustalığını gözəl nümayiş etdirən və sadə olduğu qədər də dərin duyğuları gözəl ifadə edən şeirlərdən biridir!

Şəhriyar 1953-cü ildə əmisi qızı Əzizə ilə evləndi; Şəhriyar və Əzizə xanımdan bir oğul və iki qızı qalmışdır. Şəhriyar 1953-cü ildə Tehrandan Təbrizə köçmüş, Tehrana gedib-gəlmiş, 1973-74-cü illərdə bir qədər Tehranda yaşasa da yenə Təbrizə dönmüşdür (1974-cü ildə Əzizənin Tehranda ölümündən sonra). Şəhriyar xəstələnmiş, müalicə üçün Tehrana aparılmış, 1988-ci ildə orada dünyasını dəyişmişdir. Ana-atası Qumda, həyat yoldaşı Tehranda torpağa verilmiş, lakin Şəhriyar özünün Təbrizdə dəfn olunmasını  vəsiyyət etmiş və Təbrizdə, Sürxabda, Məqbərətü`ş-Şüarada (Şairlər məqbərəsində) torpağa tapşırılmışdır.

Şəhriyar İranın böyük şairi kimi şöhrət qazanıb, klassik İran poeziyasının yeni layiqli davamçısı sayılıb, şeirlərinin böyük əksəriyyəti farscadır, farsca yazılmış əsərləri küllisi irihəcmli və çoxcildlidir. Bu əsərlərin və ya onların seçilmiş hissəsinin Azərbaycan türkcəsinə sətri/filoloji tərcümə edilməsi yaxşı olardı; bu, Şəhriyar irsinin Azərbaycanlı tədqiqatçılar tərəfindən daha dərindən öyrənilməsinə, poetik tərcümə zamanı ciddi təhriflərə yol verilməməsinə və yeni poetik tərcümələrin yaranmasına kömək edərdi. Şəhriyar 20-ci əsr İran ədəbiyyatında əsasən klassik divan ədəbiyyatına xas olan qəzəl və qəsidə ustası kimi yer tutmuş, onun haqqında yeni dövrün Hafizi kimi fikirlər yayılmışdır. Bu yazı əsasən Şəhriyarın Azərbaycan türkcəsində yazdığı (sayı yüzü keçməyən) şeirlərdən təsirlənərək yazılmış, müəyyən müqayisə və paralellərə qısa nəzər salınmış, yazını hər kəsin oxuya bilməsi üçün onun bütövlüyünə səy edilmişdir.

Firdovsi, Nizami, Sədi, Mövlanə Cəlaləddin Rumi, Hafiz, Cami kimi nəhənglərin ilhamı  fars dilində möhtəşəm poeziya aləminin yaranmasına səbəb olmuşdur. Çox zəngin klassik poeziya məkanı olsa da, 20-ci əsrdə İranda da yenilikçilərin, Avropa mədəniyyətini əxz etmək, "Avropanı Şərqə gətirmək" tərəfdarlarının  meydana çıxması təbiidir. İran poetik dünyasında yenilikçi cərəyanın lideri Mazandaranlı (Yuş`lu) Nima Yuşic (1895/96-1960) Avropasayağı yazmaq, sərbəst vəzndə yazmağa çalışmaq, tək özümüz üçün deyil, dünya üçün yazmaq məsələsini ortaya açmış, bu üslubda yazmış və məşhurlaşmışdır. Fransız poeziyasını orijinalda öyrənən və ondan təsirlənərək yazan Nimanı modern İran poeziyasının banisi sayırlar. Əruz və sərbəst şeir tərzlərini bir-birinə qovuşduran və şeirlərində canlı danışıq dilinin gücünü göstərən Nima həmçinin poetik yaradıcılıq üsulları və psixologiyası üzrə əsərlər müəllifidir. Nima məktəbinin, modern İran poetik məktəbinin davamçıları arasında Əhməd Şamlu (1925-2000) xüsusi seçilir. Nimanın poetik ilham və gözəlliyi tərənnüm edən "Əfsanə" poeması (1921-22) məşhur olmuşdu. Şəhriyar onun təsiri ilə "İki cənnət quşu"nu yazmışdı. Amma, Şəhriyar, bir qədər yenilikçi təsirlərə məruz qalsa da, əsasən klassik şərq şeir üslubunda yazmış, sevilən, əzbərlənən şöhrətli milli şair olmuşdur. Şəhriyarın yenilikçilərlə arası dəymiş, Şəhriyarın qəzəlxanlığı və ictimai-siyasi baxışları yenilikçilərin tənqidinə məruz qalmışdır. Rza Bərahəni Şəhriyar əleyhinə qalxmışdı: "Şəhriyar əbədilik keçmişdə qalıb, Şəhriyar yalnız yaxşı bir qəzəlxandır" (1972). Deyilənə görə, yenilikçilər çoxu solçu, Şəhriyar isə nə sağçı, nə solçu idi (?). Şəhriyarı saray şairi sayanlar da olmuşdur.

Onu da qeyd etmək yerinə düşərdi ki, Türkiyə vasitəsilə fransız poetik ənənələri ilə tanış olan Mirzə Tağıxan Rafət (1887-89?-1920) sərbəst şeirlər yazsa da (əsasən farsca, qismən türkcə və fransızca), İranda türkcə modern şeir/sərbəst şeir cərəyanının lideri, yəqin ki, onun davamçısı sayılan və özü də Türkiyədə ali təhsil almış Həbib Sahir (1903-1988) olmuşdur (Həbib Sahir və Şəhriyar mədrəsə yoldaşı olublar). Bu yerdə bənzər hadisələrin daha əvvəl şimalda baş verməsini də yada salmaq olar. Abbas Səhhət (1874-1918) rus və qərb ədəbiyyatdan etdiyi tərcümələrinə - "Məğrib Günəşləri" kitabına (1912) yazdığı giriş sözündə bir məqsədinin qərblilərin necə şeir yazdığını göstərmək olduğunu söyləmiş və bunun bizim şairlər üçün faydalı ola biləcəyini demişdi (onlar şərqliləri tərcümə edib öyrənirlər, biz niyə bu cür etməyək?!). 1920-ci illərin sonu və 30-cu illərdə rus şairi V. Mayakovskinin, qismən də Türkiyəli Nazım Hikmətin təsiri ilə Sovet Azərbaycanında sərbəst vəzn dəbə minmişdi. 20-ci əsr Sovet dövrünün ən məşhur Azərbaycan şairi Səməd Vurğun (1906-1956) da

sərbəst şeir dəbinə cavab vermiş, lakin onun bu marağı uzun davam etməmiş, hecanın musiqilin ahəngi onu öz qoynuna almışdı. Digər tərəfdən, düşünürəm ki, şimalda - Azərbaycanda zaman-zaman qəzəlxanların meydana gəlməsində (Ə. Vahid!) və ya heca vəznində yazan şairlərin bəzən qəzəl janrına müraciət etmələrində klassik poeziyanın təsiri ilə yanaşı söz olaraq qəzələ bağlı olan muğam sənətinin rolu da mühüm olmuşdur.

Şəhriyarın Azərbaycan türkcəsində ilk əsəri - “Heydərbabaya salam”ın (1-ci hissənin) 1952-53-cü illərdə Tehranda yazıldığı, mümkündür ki, Təbrizdə tamamlandığı güman olunur, əsər 1954-də Təbrizdə nəşr olunmuşdur. Təbrizdəki nəşrdən bir neçə ay sonra “Heydərbabaya Salam” Türkiyədə bilinmiş, “Azərbaycan” dərgisində dərc olunmuşdur (1954-55), üstəlik bu əsərə ilk səs verənlərdən biri yenə Türkiyədə, həmin dərgidə çox həssas və uzaqgörən bir adla - “Edebi bir Hadise” adlı məqalə ilə çıxış edən Məhəmməd Əmin Rəsulzadə olmuşdur (“Azerbaycan” dergisi, 1955, No 4-5). “Heydərbabaya salam”ın ikinci hissəsinin 1963-65-ci illərdə yazıldığı deyilir, 1964-cü ildə Təbrizdə, 1965-ci ildə Türkiyədə (“Türk kültürü” dərgisində) və 1966-cı ildə Bakıda nəşr olunmuşdur. “Heydərbaba” Təbriz yaxınlığındakı Xoşginab kəndinin yanında bir dağın adıdır.

“Heydərbabaya salam” Azərbaycan poeziyasında ən çox sevilən və əzbərlənən əsərlərdən biri olmaqla öz dövrünün şeirsevərlərinin və sonrakı nəsillərin yaddaşında xüsusi yer almış, onun təsiri böyük olmuş, müxtəlif şairlər tərəfindən ona çox nəzirə, bənzətmə və ya sadəcə cavab yazılmışdır; Şəhriyar onların bir qisminə şeirlə cavab vermişdir. Əsər bir çox dillərə, o cümlədən farscaya (1993) tərcümə olunmuşdur. Poema ilk sətirlərindən sadə insanların danışdığı tərzdə, şirin Təbriz ləhcəsində gedən söhbət təsiri bağışlamaqla Şəhriyar qələminin qeyri-adi hiss-həyəcan yaratmaq gücünü nümayiş etdirir:

Heydərbaba, ildırımlar şaxanda
Sellər-sular şaqqıldayıb axanda
Qızlar ona səf bağlayıb baxanda
Salam olsun şövkətüzə, elüzə
Mənim də bir adım gəlsin dilüzə.

Türk dilli oxucular arasında Şəhriyarı məşhur edən məhz “Heydərbabaya salam”dır. Daha çoz əzbərlənən və alıntılar edilən bəndlər əsərin birinci hissəsindədir, onlardan şəxsi xatirələri deyil, dünya, həyat və ölüm haqqında düşüncələri ehtiva edən bəzi bəndləri yada salıram (“Heydərbabaya salam” haqqında danışarkən və yazarkən əsərdən xeyli alıntılar etmədən keçinmək mümkünsüzdür...):

4. Heydərbaba, gün dalıvı dağlasın
Üzün gülsün, bulaqların ağlasın
Uşaqların bir dəstə gül bağlasın
Yel gələndə ver gətirsin bu yana
Bəlkə mənim yatmış bəxtim oyana.

5. Heydərbaba, sənin üzün ağ olsun
Dört bir yanın bulaq olsun, bağ olsun
Bizdən sora sənin başın sağ olsun
Dünya qəzov-qədər, ölüm-itimdi
Dünya boyu oğulsuzdu, yetimdi.

6. Heydərbaba, yolum səndən kəc oldu
Ömrüm keçdi, gələnmədim, gec oldu

Heç bilmədim gözəllərin necoldu
Bilməz idim döngələr var, dönüm var
İtginlik var, ayrılıq var, ölüm var.

49. Heydərbaba, dünya yalan dünyadı
Süleymandan, Nuhdan qalan dünyadı
Oğul doğan, dərdə salan dünyadı
Hər kimsəyə hər nə verib alıbdı
Əflatundan bir quru ad qalıbdı.

69. Heydərbaba, göylər bütün dumandı
Günlərimiz bir-birindən yamandı
Bir-birizdən ayrılmayın, amandı
Yaxşılığı əlimizdən alıblar
Yaxşı bizi yaman günə salıblar.

71. Bir uçaydım bu çırpınan yelinən
Bağlaşaydım dağdan axan selinən
Ağlaşaydım uzaq düşən elinən
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

76. Heydərbaba, səninn köylün şad olsun
Dünya varkən ağzın dolu dad olsun
Səndən keçən tanış olsun, yad olsun
Deynə mənim şair oğlum Şəhriyar
Bir ömürdür qəm üstünə qəm qalar.

Əsər, deyilənə görə, anası Kövkəb xannımın "nə yazdığını bilmirəm, mənim başa düşmədiyim dildə yazırsan" sözlərindən sonra yazılmışdır (anasının təsiri olub, amma o, dəqiq beləmi deyib, yoxsa sadəcə, öz danışığı ilə Şəhriyarda həzin uşaqlıq xatirələrimi oyadıb?!). Uşaqlıq (və ilk gənclik) xatirələri sənət adamlarının yaradıcılığında həmişə böyük rol oynayıb, bu, Şəhriyar yaradıcılığında da aparıcı xətlərdən biridir ("Heydərbabaya salam", farsca yazılmış "Gecənin əfsanəsi",...). Xüsusilə, uşaqlığını kənddə, kənd mühitində və təbiət qoynunda keçirən və sonralar şəhərdə yaşayanların xatirələri sanki daha kövrək olur (bəlkə də burada şəhər mühitinin doğma kənd mühitindən fərqi təsiredici rol oynayır?!). Jean-Jacques Rousseau (1712-1778) insanın təbiətə, "təbii hal"a qayıtması fəlsəfəsi ilə "uşaq mütləq bir müddət kənddə yaşamalı, təbiətlə iç-içə qalmalıdır" fikrini ortaya atmışdı. Həyatın isə öz cərəyanı var, tək indi deyil, lap qədimlərdə də insanlar kəndlərdən şəhərlərə axışmışlar:

Şəhər yeni, kənd əzəldi
Şəhərlilər kənddən gəldi...
Oxumağa gələn də çox
Ağlayan da, gülən də çox
Şəhər üçün ölən də çox...

Biri haya-küyə gəldi,
Biri məzə-meyə gəldi,

Bilməsə də nəyə gəlgi
Şəhər deyə-deyə gəldi,
Şəhəri görməyə gəldi,
Şəhərdə ölməyə gəldi...    ("Şəhərlilər kənddən gəldi", Hamlet İsaxanlı - "Bu da bir həyatdı", Bakı, 2004)

Şirin uşaqlığını hər kəs xatırlayır və bu anlar qəribə hisslər keçirir; şair bu hissləri misralara düzə bilir. "Heydərbabaya Salam" Şəhriyarın öz uşaqlığı ilə, uşaq vaxtı onu əhatə edənlərlə, xalqla, təbiətlə söhbətidir. Yüksək sənətkarlıqla aparılan bu söhbət gah bulağın zümzüməsini, gah çayın şırıltısını, gah dənizin ləngərini andırır, gah da sellərlə, ildırımlarla müşayiət olunur. Şəhriyar sevinc və məhrumiyyətləri əvvəlki şairlərə bənzəməyən bir dildə və tərzdə, belə demək mümkünsə, folklor gücü ilə təsvir edir. Bu söhbət bizi də arxasınca aparır,  çünki bizim hisslərimizdən də xəbər verir – budur sənətin qüdrəti! Şairlik həm də içimizdə yaşayan uşaqlığın zümzüməsidir, uşaqlıq sevdasıdır:

Bir gün günaha batdım -
Içimdəki sadə, təmiz,
Başqa nəfəs toxunmamış,
Məclislərdə oxunmamış
Şeirə bənzər misraları
Silkələyib oyatdım.
Sətir-sətir, cümlə- cümlə
Qələmimlə
Bəzəyib çölə atdım,
Özümə iş yaratdım.
Qafiyəli, musiqili sözümü
Kağıza köçürməkdən
Saxlamışdım özümü
Neçə kərə.
Sözümü vurdum yerə,
Uydum sevdalı şeirə.
Bağışlayın,
Gücüm yox, bu olasıydı,
Bu, uşaqlıq sevdasıydı... ("Şeirlərim", Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından).

Azərbaycan türkcəsində yazdığı şeirlərində Şəhriyar el ədəbiyyatından yaxşı məlum olan beş misralı aaabb qafiyəli şeir növündən çox istifadə etmişdir. S. Vurğunun məşhur "Azərbaycan" şeiri kimi:

Sıra dağlar, gen dərələr
Ürək açan mənzərələr
Ceyran qaçar, cüyür mələr
Nə çoxdur oylağın sənin
Aranın, yaylağın sənin.

Səməd Vurğun Şəhriyarı tanımağa macal tapmadı, 1955-ci ildə ağır xəstələndi və 1956-cı ildə vəfat etdiyi üçün "Heydərbabaya salam" haqqında eşitmədi. Lakin S. Vurğunun şöhrəti Şəhriyara gəlib çatmışdı ("Səmədin də sözündən öp" deyə yazmışdı – "Qardaşım Süleyman Rüstəmə"). Şəhriyarın "Heydərbabaya Salam"la (1-ci hissə 76, 2-ci hissə isə 48, bir variantda – 49 bənddən-beşlikdən ibarət olmaqla) başladığı bu üslub "Ağa Mirsadığın xeyrati", "Məmməd Rahim həzrətlərinə cavab", "El

bülbülü", "Ayrılıq" (Qardaşım Süleyman Rüstəmə ithaf), yenə "Qardaşım Süleyman Rüstəmə" (8-hecalı), "Döyünmə-söyünmə (Rüstəm Əliyevə), "Sənəti-məmləkət", "Əncela" kimi şeirlərində də işlənilmişdir.

Türkcə yazan böyük şairləri - Füzuli, Vaqif, xüsusilə S.Ə. Şirvani və M.Ə. Sabir, həmçinin aşıq ədəbiyyatını yaxşı bilmiş, onlara farsca və Azərbaycan türkcəsində bənzətmələr yazmışdır, o cümlədən Vaqifin "bayram oldu" şeirinə farsca "Camal və Kamal" adlı qəzəl yazmışdır. Şəhriyar yaradıcılığında S.Ə. Şirvaninin qəzəllərinin və Sabirin "Hophopnamə"sinin təsiri açıq hiss olunur. Müraciət etdiyi və ilham aldığı qaynaqlar arasında Əsli-Kərəm, Koroğlu, Qaçaq Nəbi, bayatılar və mahnılar (məsələn, "Bakıdan fanar gəlir") olub. Şəhriyar öz müasiri olan Sovet Azərbaycanı şairlərini, yəqin ki, əsasən məktublaşmalar zamanı daha yaxından tanımağa başlamışdı. Üzeyir bəy Hacıbəylinin adını çəkməsə də, məşhur "Məşdi İbad" və "Arşın malçı"nı yada salır.

Şəhriyarın "Heydərbabaya salam"dan sonra ən çox diqqət çəkən əsərlərindən biri öz həmvətəni şair Bulud Qaraçorlu Səhəndə (1926-1979) cavab olaraq yazdığı "Səhəndim" və ya "Səhəndiyyə"dir. Səhəndiyyə" aşıq divani ruhu ilə yoğrulmuş kimidir, formaca pilləvari şeirdir, qafiyələri sanki axıb gedir və xüsusi qəlibə tabe deyil. Yanğının, hisslərin çılpaq, bəzəksiz ifadəsi olan "Xan nənə" şeirini də şair xüsusi bənd və qafiyə sisteminə tabe etməmişdir. Qeyd edim ki, Səhənd türkcə yazan çağdaş İran şairləri içində Şəhriyarın ən yüksək qiymət verdiyi şairdir. Bir neçə şeirində Səhəndi yüksək qiymətləndirir, onu (və tək onu) özü ilə yanaşı tutur:

Fürsətdə Səhənd ilə sizə gül səpərik biz
Hər göz sizi görmüşsə, o güzdən öpərik biz (“Döyünmə-söyünmə”).

Həm "Səhəndiyyə" Səhəndin dağın etdi başuca
Həm mən öz qardaşımın həqqini ifa elədim ("Dərya elədim").

Şəhriyar arzı-göz oldu ki, Səhəndilə gələ
Bəxtiyar məclisinə, başda Süleyman Rüstəm ("Can Rüstəm").

Şəhriyarın türkcə şeirlərinə xas olan kövrəklik, nisgil, səmimilik, dil (zəngin, obrazlı təbriz dialekti), divan ədəbiyyatı və xalq ədəbiyyatının sintezindən doğan ləngərli axıcılıq onu hər kəsdən fərqləndirir. "Türkün məsəli, folkloru dünyada təkdir" ("Türkün dili") - Şəhriyarın bu misrası Fuad Köprülünün Azərbaycan ədəbiyyatın güclü tərəfi onun zəngin folklorudur fikri ilə tuş gəlir. Azərbaycan türkcəsinin zənginliyinə qovuşub onu canlandıran, ona xüsusi ifadələr gətirən nəhənglərimiz olub - Füzuli, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı və Səməd Vurğun kimi, Şəhriyar da bu sıradadır. Türkcə şeirlərini əsasən heca və əruz vəznlərində yazıb. Əruz nəfəsli hecası var Şəhriyarın! Ritmik dayanacaqlar (sezuralar; məsələn, 11 hecalı misralarda 6+5 və ya "Heydərbabaya salam"ın yazıldığı 4+4+3 bölgüləri) Şəhriyar şeirlərində pozula bilir. Şəhriyarın türkcə şeirlərində yazılı ədəbi dil normaları deyilən qəliblərdən kənara çıxmalar az deyil. Bu, məncə, əruz vəzninin şairi olmaqdan, canlı danışıq ləhcəsindən istifadə etməkdən və sadəcə, Şəhriyarın türkcədə ədəbi dil normaları haqqında düşünməməsindən irəli gəlirür, Şəhriyar bu normaları vecinə almır, bildiyi, danışdığı dili yazır...Sərbəstdir, qafiyələrdə hərfilik güdmür, fikir təbii axarını tapır. "Dədəm Qorqud"un şeirləri də hesabla deyil, yırğalanır, ahənglədir, pilləvaridir.

Şəhriyar öz poetik yaradıcılığı barədə təvazökarlıq etməmiş, həm şairlik qüdrətini, həm türkcəyə töhfəsini, həm "Heydərbabaya salam"ın möcüzəsini dəfələrlə yada salmış, tərif etmişdir. Özünü əsrimizin Hafizi və Saibi adlandırmışdır. Yeni bir Hafiz doğulması mümkündürmü?

Belə bir dövrədə Hafiz doğulur?
Bir ümid varsa qalıb məncığaza... ("Cəhad fərmanı").

Şeirlərinin İranda, Türkiyədə, Qafqazda böyük rəğbət gördüyünü, "vəlvələ" yaratdığını, yazır. "Türkü bir çeşmə isə, mən onu dərya elədim" ("Dərya elədim"), buna bənzər ifadələrə Füzuli və Əlişir Nəvai`də, fars dili haqqında isə Firdovsi`də rast gəlinir, onların buna böyük haqqı var. Şəhriyar yaradıcılığınınm böyük hissəsinin farsca olmasına işarə vuranlara "Elimin farsıca da dərdini söylər diliyəm mən" (Səhəndiyyə) deyir. "Türkün dili"ni tərif edir, bu barədə xüsusi şeir yazır, lakin, bununla yanaşı, bədəni və paltarı olub ürəyi olmayan şeirin əsil şeir olmadığını deyir, dadlı-duzlu şeirə və əsil şairə ehtiyacı vurğulayır:

Türkün dili tək sevgili, istəkli dil olmaz
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.
...Bişmiş kimi şeirin də gərək dad-duzu olsun
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.
...Şair ola bilməzsən, anan doğmasa şair
Missən, a balam, hər sarı köynək qızıl olmaz.

Heydərbaba dağından əvvəl, yenə S. Vurğunu, onun Göyəzən dağını yada salıram:

Göylərə baş çəkir Göyəzən dağı
Axşam açıq olur Ayın qabağı
Bizim gəlinlərin bayram qabağı
Fəsəli yaymağı yadıma düşdü.

Deyilənə görə, Qazaxdakı bir təpəni - Göyəzən dağını ilk dəfə görən şair dostlarından birinin "Ay Səməd, bu göylərə qaldırdığın Göyəzən adi bir təpə imiş" sözünə S.Vurğun zarafatla (amma, yəqin, bir qədər də qürurla) "şairin gücü elə təpəni əzəmətli dağa çevirə bilməsindədir" deyə cavab veribmiş. Şəhriyar da Heydərbaba dağını/təpəsini əzəmətli bir dağa çevirdi!

Bax ki, Heydərbaba əfsanə tək olmuş bir Qaf
Mən kiçik bir dağı sərmənzil-i ənqa elədim ("Dərya elədim").

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev bir müsahibəsində "ən çox sevdiyin şair kimdir" sualına Şəhriyar, ən çox sevdiyin şeir hansıdır" sualına isə S. Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermiş, bununla Şəhriyar və S.Vurğunu, həmçinin iki Azərbaycanı yanaşı qoymuşdu. Bu yazıda bu iki böyük şairin adını bir neçə dəfə yanaşı çəkdik. Onlar Azərbaycan poeziyası səmasında parlayan ulduzlardır, bənzərsiz poetik incilər yaratmışlar. Səməd Vurğun`un "Vaqif" dramı poeziyamızın təkrar olunmaz şah əsəridir, onu keçən heç nə yazılmadı, nə S. Vurğunun özünün, nə digər şairlərin buna qüdrəti çatmadı. Eyni fikri "Heydərbabaya Salam" haqqında da demək olar. Şəhriyar əsasən "Heydərbaba şairi" kimi tanındı və məşhurlaşdı. Məşhur əsərlər (o cümlədən, S.Vurğunun "Vaqif"i, Şəhriyarın "Heydərbabaya salam"ı) sanki ilhamın möcüzəli qanad açması ilə, sanki vəhy ilə gəlmişdir, onların tayı olmur.

Şəhriyarın "Heydərbabaya salam" və Azərbaycan türkcəsində yazdığı digər şeirləri maraqlı deyimlərlə, məcazlarla, oynaq naxışlarla bəzənmişdir. Təhlildən vaz keçərək yuxarıdakı misallara bir neçə misra da əlavə edək:

...Bizə bir din qala bilmişdi miras, bir də İran
Din gedəndə dedi: “tək getmərəm”, İran ilə getdi.
...Hava insanı boğur, baş-başa “qaz, karbonik” olmuş
Yel də əsmir, elə bil yel də Süleyman ilə getdi.
...Türki olmuş qədəğən, divanımızdan da xəbər yox
Şəhriyarın dili də “vay” deyə divan ilə getdi (“Getdi”).

Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa
Qaçmışam Təbrizə, qoy yaxşı-yaman bəllənsin (“Şatır oğlan”).

Çoxlar incikdi ki, sən onlara naz eyləmisən,
Mən də incik ki, mənim nazımı az eyləmisən.
...Bu gözəllik ki, cahanda sənə vermiş tanrı,
Hər qədər naz eləsən eylə ki, az eyləmisən.
... Mən bu mənada qəzəl yazmağa halım yox idi,
Sən mənimtək qocanı firfirabaz eyləmisən (“Naz eyləmisən”).

Burada Səməd Mənsurun “Naz et” (“Naz et mənə, ey sevgili yarım, mənə naz et”) şeirinə Ə. Vahidin “Təxmis”i yada düşür (Yansın dilim ağzımda, desəm nazüvi az et/Naz et mənə, ey sevgili canan, mənə naz et...).

Şair millətin qoyun olmasını istəmir, bu təhlükə onu qorxudur:

Qorxum budur oyun ola
Millət yenə qoyun ola” (Qardaşım Süleyman Rüstəmə).

Və ya:

İtimiz qurd olalı, biz də qayıtdıq qoyun olduq
İt ilə qol boyun olduq.
...Bir də baxdıq it ilə qurd arasında oyun olduq
İt ilə qol-boyun olduq (“Qoyun olduq” müstəzadı).

Nümunələri “Səhəndim”dən götürülmüş misralarla bitirirəm:

Şeir yazanda qələmindən baxasan dürr səpələndi,
Sanki ulduzlar ələndi.
Söz deyəndə görəsən qatdı gülü, püstəni, qəndi,
Yaşasın şair əfəndi!

...Gecələr orda gümüşdəndi, qızıldan nə günüzlər,
Nə zümürrüd kimi dağlardı, nə mərmər kimi düzlər,
Nə qızıl telli inəklər, nə ala gözlü öküzlər,
Nə gözəl, ay kimi üzlər!

...Lalə bitdi yanaq oldu,
Qonça güldü dodaq oldu,
Nə sol oldu, nə sağ oldu,

Hamısı birsayaq oldu!

...Yad məni atsa da, öz gülşənimin bülbülüyəm mən,
Elimin farsıca da dərdini söylər diliyəm mən,
Həqqə doğru nə qaranlıq isə el məşəliyəm mən,
Əbədiyyət gülüyəm mən.

Şəhriyarşünaslar Şəhriyar irsini öyrənir, araşdırır, öz düşüncələrini oxucularla bölüşməyə çalışırlar. Sağ olsunlar. Lakin, bəzən sadə oxuculara xas olan alüdəçilik və rəvayətçilik sanki bir sıra alim və sənət adamlarına da hakim kəsilir. Əlbəttə, rəvayətlərin də öz yeri var, qoy aşıqlar Şəhriyar haqqında rəvayətləri toplayıb "Şəhriyar və Sürəyya" adlı dastan qoşsunlar. Lakin elmi araşdırma iddiasında olanların alüdəçiliyi lazımsız şişirtmələrə, faktların rəvayətlərlə əvəz olunmasına, hətta təhriflərə yol açır. Şəhriyar böyük şairdir, onun həyatını, poetik və ictimai düşüncələrini, həyata baxışını olduğu kimi anlamaq və anlatmaq lazımdır. Hər şairin, elm və ya sənət adamının güclü və nisbətən zəif əsərləri və ya ziddiyyətli baxışları ola bilir, onların portreti yaradılarkən mübahisəli məqamlara göz yummaq, kölgələri silmək, bəlağət, bəzək və parıltını artırmaq gerçəkliyin təhrifi deməkdir, elmə zidd hərəkətdir.

Böyüklüyün mahiyyəti
Hər işdə qeyri-adilik
Və ya kamillik deyil ki...
Təcrübə bizə deyir ki
Dahi varsa aramızda
Allah bəndəsidir o da,
Seçilsə də insanlardan
Birinci olmaq verilmir
Ona hər yerdə, hər zaman.

Qocaman bir müdrik kişi
Bir uşağın arxasınca
Tər töksə də yetə bilmir,
Qartal kimi qanad çalan
Bülbül kimi ötə bilmir.
Kimdə ki böyükdür hünər
Səhvi də böyük görünər.
Belədir dünyanın işi:
Parıltı həm də çaşdırır,
Gur işıq göz qamaşdırır... ("Köhnə çıraq". Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından)

Şairin böyüklüyünü göstərən əlamətlərdən biri zaman keçdikcə onun bizə daha yaxın görünməsi, onun yaradıcılığına olan sevginin artması, onun odunun alovlanması deyilmi?! Şəhriyar öz adının, sözünün yaşayacağına inanırdı, "Heydərbabaya salam"ın ikinci hissəsində, sona yaxın bunu xüsusi vurğulamışdı:

45. Evlər qalır, ev sahibi yox özü
Ocaqların ancaq işıldar gözü
Gedənlərin az-çox qalıbdır sözü
Bizdən də bir söz qalacaq, ay aman

Kimlər bizdən söz salacaq, ay aman!

47. Aşıq deyər: bir nazlı yar var imiş
Eşqindən odlanıb yanar var imiş
Bir sazlı, sözlü Şəhriyar var imiş
Odlar sönüb, onun odu sönməyib
Fələk çönüb, onun çarxı çönməyib.

Şəhriyar yaradıcılığına həsr olunmuş konfranslarda (Bakı və Təbriz, 2016, Sentyabr) bir neçə şeir, o cümlədən, "Dalğalarla yan-yana" adlı aşağıdakı şeiri oxumuşdum, bu yazını da onunla bitirirəm:

Gündoğandan günbatana gəzmişəm,
Oxşamıram bu dünyadan doyana.
Şaxta vurub, od ələnib, dözmüşəm,
Səyyah gərək hər möhnətə dayana.

Yaraşıqlı, möcüzəli bir diyar,
Amma orda nə eşqım, nə izim var.
Öz yurdumda gül açmışdı arzular,
O güllərin qoxusundan harda var?!
Yaxşı deyib ustadımız Şəhriyar :
«Yel gələndə ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana»

Bu dünyanın çoxmuş bəndi-bərəsi,
Xeyirlə şər mənəm deyir hərəsi,
Zamandadır, varsa, bunun çarəsi...
Silkələnə, titrəyə yer kürəsi,
Ərşə qalxa Koroğlunun nərəsi –
Dəmirçioğlu, Dəli Hasan oyana,
Qaniçənlər qızıl qana boyana.

Heyrət bəzən bağlasa da dilimi,
Duyğularım işə saldı qələmi,
Iynə olub sapa düzdüm aləmi.
Içdən gələn sevincimi, naləmi
Yüklənərək yelkən açdı bir gəmi...
Ömür keçdi dalğalarla yan-yana,
Salam olsun bu əhvalı duyana!     (Hamlet İsaxanlı - "Bu da bir həyatdı" kitabından).